# Qəbələdə X beynəlxalq toplantı keçirilmişdir

(Əvvəli 2-ci səhifədə).

Komitə sədri İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıl Serageldinə Azərbaycanın böyük şairi Nizami Gəncəvinin irsinin təbliğində göstərdiyi xidmətlərə görə təşəkkürünü bildirib.

Sonra dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 875 illik yubileyi ilə bağlı videoçarx nümayiş etdirilib. Videoçarxda Azərbaycanın incəsənət ustalarının ifasında Nizami Gəncəvinin əsərlərindən parçalar səsləndirilib.

Tədbirdə çıxış edən Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Frayberqa tədbir çərçivəsində keçiriləcək iclaslarda müzakirə ediləcək mövzular barədə məlumat verib. Qəbələnin füsunkar gözəlliyə malik olduğunu vurğulayan sabiq prezident Madrid Klubunun iclaslarının iki gün ərzində bu şəhərdə keçiriləcəyini bildirib. O, çıxışında xalqlar arasında tolerantlıq məsələlərinə, dünyada baş verən siyasi proseslərə də toxunub.

Niderlandın sabiq baş naziri Vim Kok zorakı ekstremizmin fəsadlarından danışaraq bildirib ki, terrorizmin qurbanları daha çox qadınlar və uşaqlar olur. O, həmçinin son aylar Avropaya güclü miqrant axınının, ABŞ-da keçirilən prezident seçkilərinin qlobal proseslərə təsirindən söhbət açıb.

Serbiyanın sabiq prezidenti Boris Tadiç çıxışında dünya siyasətinin texnoloji proseslərə uyğun olaraq dəyişikliyə məruz qalmasından, demokratiyanın hazırkı durumundan danışaraq deyib: "Bu gün demokratik qaydalar və dəyərlər dünyada mövcud situasiyalara uyğun şəkildə dəyişir. Bu gün bizi düşündürən əsas məsələ artan zorakı ekstremizmin qarşısını almaq üçün müvafiq qaydaları qəbul etməkdir. İndi dünyada baş verən prosesləri əvvəlkindən daha çox təhlil etməliyik".

İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıl Serageldin dünyada terror hadisələrinin baş verdiyi coğrafiyanın daha da genişləndiyini söyləyib.

Dekabrın 11-də başa çatan tədbirdə 20 ölkədən sabiq dövlət və hökumət başçıları olmaqla, ümumilikdə 50-dək tanınmış siyasi və ictimai xadim, ekspertlər, alimlər iştirak etmişlər.

**«Qəbələ».**

# Peşə bayramlarını qeyd etmişlər

***Dekabrın 6-da rayonun rabitə işçiləri peşə bayramlarını qeyd etmişlər. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüş, onun əziz xatirəsini yad etmişlər.***

Sonra "Rabitə evində" toplantı təşkil olunmuşdur. Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil edilib. O vaxtdan bütün respublikada rabitəçilər və informasiya texnologiyaları sahəsinin işçiləri bu günü öz peşə bayramları kimi qeyd edirlər.

Toplantıda çıxış edənlər müstəqil Azərbaycanda rabitənin qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması istiqamətində



Ağasəfov çıxış edərək, bütün rabitə işçilərini peşə bayramı münasibətilə təbrik etmişdir. O, qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 dekabr 2006-cı il tarixli Sərəncamı ilə ölkəmizdə 6 dekabr Rabitə İşçiləri Günü elan tə sahəsinin ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində inkişaf etməyə başladığını və Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulamışlar. Qeyd olunmuşdur ki, dövlət başçısı tərəfindən Azərbaycanda rabitə sahəsində işlər davamlı olaraq həyata keçirilir.

Sonda uzun müddət səmərəli fəaliyyətinə görə Qəbələ Poçt Filialının bir qrup əməkdaşlarına diplom və xatirə hədiyyələri təqdim olunmuşdur.

**«Qəbələ».**

# «Əmək» ordeni təsis edildi

***Noyabrın 29-da Milli Məclisin növbəti iclasında Azərbaycan Respublikasının «Əmək» ordeninin təsis edilməsi ilə əlaqədar «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Qanun layihəsi təsdiq edildi. «Əmək» ordeni ilə Azərbaycan vətəndaşları əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istənilən fəaliyyət sahəsində Azərbaycanın inkişafına və rifahının təmin olunmasına yönəlmiş müstəsna əmək nailiyyətlərinə görə, o cümlədən sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, sənətkarlıq, xidmət və digər sahədə uzunmüddətli məhsuldar əməyə, elm, təhsil, səhiyyə, mədəniyyət, bədən tərbiyəsi və idman sahələrində fərqlənən əmək nailiyyətlərinə görə təltif edilir.***

### *31 dekabr—Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür*

# Birliyimiz əbədidir

***«Harda olursa-olsun azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycan daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda Azərbaycandan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub, birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir».***

***Heydər Əliyev.***

31 dekabr dünyanın hər tərəfinə səpələnmiş azərbaycanlılar üçün ən əziz gündür. 25 ildir ki, dünya azərbaycanlıları 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi bayram edirlər.

Tarixin müxtəlif mərhələlərində düçar olduqları məhrumiyyətlər səbəbindən doğma vətənindən didərgin düşənlərin təşkilatlanması sanki öz məqamını gözləyirdi. XX əsrin axırlarında dövlət müstəqilliyinin bərpasından sonra dünya birliyinin tam hüquqlu üzvünə çevrilən Azərbaycvan Respublikasının qarşısında duran başlıca vəzifələrdən biri də azərbaycanlıların vahid bir ideya ətrafında birləşməsi idi. İdeyanın müəllifi isə ulu öndər Heydər Əliyev olmuşdur.

1991-ci il dekabr ayının 16-da onun təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin «Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü haqqında» qərarı ilə dekabrın 31-də «Dünya Azərbaycanlılarının Həmrəylik Günü» elan edildi. Bu əlamətdar hadisə ilə müxtəlif ölkələrdə məskunlaşmış 50 milyonluq bir millətin birlikdə olmaq arzularının gerçəkləşməsinin başlanğıcı qoyuldu. Qərar xaricdə yaşayan soydaşlarımız tərəfindən sevinclə qarşılandı.

Ümummilli lider Heydər Əliyevin «Bizim hamımızın bir evi var,—bu Azərbaycandır» sözləri özünü doğrultmuş oldu. 2001-ci il noyabr ayının 9—10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi xarici ölkələrdə yaşayan soydaşlarımızın vətənimizlə əlaqələrini möhkəmləndirdi. Bu qurultayın keçirilməsi milli ideyaların, azərbaycançılıq ideyalarının gerçəkləşməsi yolunda mühüm addım oldu. Qurultay Azərbaycan və eləcə də bütün dünya azərbaycanlılarının həyatında tarixi ictimai-siyasi hadisə kimi yadda qaldı. Qurultayda ən yadda qalan məqam isə ümummilli lider Heydər Əliyevin proqram xarakterli çıxışı oldu. Ulu öndər bu çıxışında dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi zərurəti ilə bağlı qiymətli fikirlər irəli sürdü.

Dünya azərbaycanlılarının birliyinin möhkəmləndirilməsi sahəsində ulu öndər Heydər Əliyevin başladığı yolu dahi rəhbərin ideyalarının layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Cənab İlham Əliyevin təşəbbüsü ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirildi. Xaricdə yaşayan azərbaycanlıların diasporları ilə əlaqə daha da gücləndi və bu proses ardıcıl olaraq davam etdirilir. Bu diasporlar Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, vətənimizin haqq işinin bu ölkələrin siyasi və ictimai dairələri tərəfindən müdafiə edilməsi üçün ardıcıl iş aparırlar.

✍ **Aslan CƏLİLOV.**